UOT 792
https://doi.org/10.59849/2311-8482.2024.2.118

XUMAR BAYRAMOVA*

# ÜZEYİR HACIBƏYLİNİN XOR ƏSƏRLƏRİNİN JANR XÜSUSİYYƏTLƏRİ

*Məqalə Azərbaycanın dahi bəstəkarı və musiqişünas alimi Üzeyir Hacıbəylinin xor yaradıcılığına həsr olunmuşdur. Məlumdur ki, Ü.Hacıbəyli Azərbaycanda ilk xor kollektivinin yaradıcısı olmuşdur və onun yaradıcılığında bu kollektiv üçün xeyli sayda əsərlər mövcuddur. Məqalədə bu əsərlərin janr xüsusiyyətlərinə nəzər salınır və Azərbacan xor musiqisinin inkişafındakı rolu işıqlandırılır. Bəstəkarın ilk xor təcrübələri kimi opera sənətinə nəzər salınmış, xüsusilə "Leyli və Məcnun" operasında yer alan xorların dramaturji əhəmiyyəti vurğulanmışdır.*

***Açar sözlər***: *Üzeyir Hacıbəyli, xor, janr, opera, vokal.*

## Giriş

Azərbaycan musiqi mədəniyyətində Üzeyir Hacıbəylinin yaradıcılığı və onun pedaqoji-ictimai fəaliyyəti yeni bir mərhələ açmış, Azərbaycan musiqi incəsənəti zəminində bir çox yeni sahələrin yaranmasına təkan vermişdir. Opera, musiqili komediya, vokal və instrumental janrlarda musiqi əsərləri ilk dəfə Ü.Hacıbəylinin yaradıcılığında meydana gəlmişdir. O cümlədən, Azərbaycan professional musiqisində xor ifaçılığı sənətinin inkişafı, xor üçün əsərlərin yaranması da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır.

## Əsas təhlil

Üzeyir Hacıbəylinin yaradıcılığında Azərbaycanda xor musiqisi, xor ifaçılığı inkişaf etdirilmiş, eyni zamanada, Azərbaycan bəstəkarlarının müxtəlif həcimli və məzmunlu xor və vokal-simfonik əsərlərinin meydana çıxmasına təkan vermişdir.

Üzeyr Hacıbəylinin yaradıcılığında xor musiqi üçün səciyyəvi olan bütün janr və formalara rast gəlirik. Onları bu cür xarakterizə etmək olar: musiqili-səhnə əsərlərinin (opera və musiqili komediyaların) tərkibindəki xorlar; xor üçün işləmələr; instrumental müşayiətli xor əsərləri – marşlar və himnlər; kantalar. Bütün bunlar özünəməxsus janr, quruluş və ifaçılıq xüsusiyyətlərinə görə fərqlənir.

Ü.Hacıbəyli Avropa musiqisi ənənələrinə, ifaçılıq təcrübəsinə, bilavasitə formaquruculuğu və musiqi dilinin qanun-qaydalarına əsaslanaraq, onları Azərbaycan musiqisinin özəllikləri ilə qovuşdurmuş, milli musiqinin qanunauyğunluqlarını xor yazısına tətbiq etməyə nail olmuşdur.

Bu baxımdan xor musiqi sahəsi Ü.Hacıbəylinin ilk yaradıcılıq təcrübəsindən – "Leyli və Məcnun" operasından başlayaraq, "Koroğlu" operasına qədər, xor üçün xalq mahnı işləmələrindən tutmuş-orijinal xor əsərlərinə qədər böyük inkişaf yolu keçmişdir və bəsətəkarın xor yazı üslubu – birsəslikdən çoxsəsliliyə qədər, unisondan mürəkkəb polifonik formaların tətbiqinə qədər, müəyyən təkamülə uğramışdır. ""Leyli və Məcnun" operasında xor səhnələri böyük yer tutur. Əsərdəki hadisələr, demək olar ki, xor səhnələrinin fonunda cərəyan edir və bir növ, xorlar səhnədə baş verən hadisələrin şərhçisinə və təkanverici qüvvəsinə çevrilir" [1, s.26].

Üzeyir Hacıbəylinin operalarında xorlar müxtəlif səpkili olub, əsərin dramaturgiyasının hərəkətverici qüvvəsi əhəmiyyətini daşıyır və bədii məzmunun açılmasında mühüm rol oynayır. "Leyli və Məcnun" muğam operasında xor partiyası hadisələrin iştirakçısı və şərhçisi kimi çıxış edir. "Koroğlu" oprasında isə xor ikili funksiyaya malikdir; bir tərəfdən, xalqın ümumiləşmiş obrazını təcəssüm etdirir, digər tərəfdən, xorun rəngarəng imkanlarından dolğunluqla istifadə olunduğunu görürük.

Qeyd etmək lazımdır ki, Ü.Hacıbəylinin operalarda xorların musiqi dilinin xüsusiyyətləri rəngarəngdir. "Leyli və Məcnun" operasında xorların musiqi fakturası sadə, melodiyası əsasən birsəslidir, bəzən xorlarda melodiya tersiya və ya seksta intervalı nisbətində ikisəsli verilir. "Koroğlu"

operasında isə Ü.Hacıbəyli xor musiqisinə yeni cəhətlər də gətirmişdir: "Çənlibel" xorunda klassik polifonik forma olan fuqatodan istifadə bu qəbildəndir.

Bəstəkarın yaradıcılığında xor üçün əsərləri nəzərdən keçirərkən, onların mövzu dairəsi, tematikası baxımından əsasən vətənpərvərlik mövzusuna həsr olunduğunu, epik xarakterli, mübarizə ruhlu əsərlər olduğunu qeyd edə bilərik. Bu xorlarda tərənnüm olunan Vətən sevgisi, millət təəssübü, düşmənə nifrət, qəhrəmanlığa çağırış ən ali insani keyfiyyət kimi təqdim olunur. Ü.Hacıbəylinin yaradıcılığında hərbi-vətənpərvrlik mövzusunda mahnılar, marşlar və Vətəni tərənnüm edən himnlər xüsusi yer tutur. Bu mənada bəstəkarın Azərbaycan dövlət himni parlaq misal ola bilər. Bu barədə həmin dövrün mətbuat səhifələrində də qeydlərə rast gəlinmişdi [7, s.269].

Azərbaycan musiqisində epik xarakterli, vətənpərvərlik mövzulu əsərlərin ilk nümunələri Üzeyir Hacıbəyli tərəfindən yaradılmışdır. Onlardan instrumental (orkestr və ya fortepiano) müşayiətli xor əsərlərini – "Azərbaycan", "Milli marş", "Qızıl əsgər marşı", "Süvari marşı", "Piyadalar marşı", "Ey Vətən", "Zəfər himni" və s. göstərə bilərik.

Bütün bu adı çəkilən əsərlər musiqişünaslıq tədqiqatlarında kütləvi mahnı janrına aid nümunələr kimi göstərilir. Onu da deməliyik ki, bu əsərlərin araşdırılması nəticəsində üzə çıxır ki, onların forma və musiqi dili ilə bağlı bir sıra xüsusiyyətləri mahnı janrına yaxınlaşsa da, onların məhz xor əsərləri kimi təqdim olunması daha məqsədəuyğundur.

Digər tərəfdən, həmin əsərlərin adında marş və himn janrı ilə birbaşa əlaqə öz əksini tapır. Bu da onların tematikasından irəli gəlir. Eyni zamanda, biz burada janrların qarşılıqlı əlaqəsindən və zənginləşməsindən də söz aça bilərik. Bu xorlar kiçik forma ölçülərinə baxmayaraq, epik, monumental xarakteri ilə fərqlənir ki, bu da onların mövzu dairəsi ilə bağlıdır və ifaçılıq keyfiyyətlərini şərtləndirir.

Bəstəkarın yaradıcılığı müəyyən tarixi dövrlərlə sıx bağlı olub, özünəməxsus mövzu dairəsi və janrlarla təmsil olunmuşdur. Ü.Hacıbəylinin yaşayıb-yaratdığı illərdə o, bir neçə belə tarixi mərhələnin şahidi və iştirakçısı olmuşdur. Yaradıcılığının ilk dövrü (1908-1917) XX əsrin əvvəlində Azərbaycanın Rusiya imperiyasının tərkibində olduğu illərə təsadüf edirdi. Bu dövrdə onu muğam operaları, musiqili komediyaları xalqın milli şüurunun oyanmasında mühüm rol oynamışdır.

Ü.Hacıbəylinin vətənpərvərlik ruhlu mahnıları, xor əsərləri, marş və himnləri Azərbaycanda baş verən müəyyən ictimai-siyasi hadisələrlə bağlı tarixi dövrlərdə yaranmışdır. Bu baxımdan Ü.Hacıbəylinin vokal-instrumental yaradıcılığında üç tarixi dövr özünü aydın büruzə verir. 1) 1918-1920-ci illər, 2) 1920-1930-cu illər; 3) 1941-1945-ci illərdə yaranmış mahnılar və xorlar. Hər üç dövrdə vətənpərvərlik mövzusu aparıcı yer tutsa da, onlar gerçəkliyin təcəssümündən doğan məzmun fərqlərinə, mətnin quruluşu və ifadə vasitələrinə görə fərqlənir.

1918-1920-ci illərdə - müstəqil Azərbaycan Demokratik Respublikası dövründə Üzeyir Hacıbəylinin mahnı və xor yaradıcılığının ilk nümunələri meydana gəlmişdir: "Milli marş" (sözləri Ü.Hacıbəylinindir), "Azərbaycan" (sözləri Ə.Cavadındır), "Çırpınırdın Qara dəniz" (sözləri Ə.Cavadındır). Onlar janr əlamətlərinə və musiqi dilinin xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Qeyd edək ki, bu əsərlər uzun illər sonra yenidən tapılıb bərpa olunmuşdur [2, s.4].

"Milli marş" hərbi-vətənpərvərlik ruhunda yazılmışdır. Dəqiq nizamlı metro-ritmik şəkil, melodiyada öz əksini tapmış pafoslu ifadə tərzi və nidalar marş xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan respublikasının Dövlət himni olan "Azərbaycan" adlı marş isə özünün yüksək pafosu, möhtəşəm ifa tərzinə görə himn janrının əsas xüsusiyyətlərini əks etdirir. Bu barədə F.Əliyeva yazır: ""Azərbaycan" milli marşı himn əhəmiyyəti kəsb edərək səslənirdi" [4, s.6]

Beləliklə də, Üzeyir Hacıbəylinin yaradıcılığında 1918-1920-ci illər əhəmiyyətli olub, onun mahnı və marşlarının yarandığı dövr kimi əlamətdardır. Bu əsərlər Azərbaycan musiqisində kütləvi mahnı, o cümlədən, marş və himn janrlarının ilk nümunələri hesab olunur.

Ü.Hacıbəylinin 1920-1930-cu illərə aid yaradıcılığında vətənpərvərlik mövzusu vətəni müdafiəyə çağıran mahnılarla və marşlarla təcəssüm olumuşdur: "Qızıl əsgər marşı" (və yaxud "Əsgər marşı", sözləri M.S.Ordubadinindir), "Komsomolçu qız" (sözləri M.Təhmasibindir), "Süvarilər mahnısı" (sözləri H.Natiqindir), mahnıları bu qəbildəndir. Bu mahnılar aydın sadə melodikaya, kvadrat quruluşa malikdir. Adı çəkilən nümunələrdən yalnız "Əsgər marşı" xor və fortepiano üçün nəzərdə tutulmuşdur. Marş xüsusiyyətlərindən istifadə ona simmetrik dəqiq quruluş, fəal hərəkətli metro-ritmik cəhətlər gətirmişdir. Bu xorda çağırış intonasiyaları qüvvətlidir.

1941-1945-ci illərdə yaranmış mahnılarda, marşlarda və himnlərdə xordan geniş istifadə olunmuşdur. Bu dövrdə yaranmış “Çağırış” (sözləri Surə Əliyevanındır), “Döyüşçülər marşı” (sözləri Səməd Vurğunundur), “Vətən ordusu” (sözləri Səməd Vurğunundur), “Yaxşı yol” (sözləri Süleyman Rüstəmindir) kimi nümunələr solist, xor və fortepiano üçün nəzərdə tutulmuşdur. Bu nümunələrdə melodiyanın hərəkətindəki interval genişliyi, marş ritmi, qammavari hərəkət və s. musiqi dilinin əsas xüsusiyyətləri kimi diqqəti cəlb edir. Eyni zamanda, milli musiqi kökləri ilə bağlılıq özünü qabarıq göstərir. Xüsusilə xalq mahnıları və aşıq havaları ilə bağlılıq, onların intonasiya-obraz quruluşunun əsasları qeyd olunmalıdır.

Bəstəkarın kantata janrına da müraciət etməsi diqqətəlayiqdir. Bunlar əsasən ölkədə baş verən ictimai-siyasi hadisələrlə bağlı olub, böyük şair və yazıçıların yubileylərinə, xalqın döyüş və əmək qəhramanlıqlarının tərənnümünə həsr olunmuş əsərlərdir. Onlardan Firdovsinin 1000 illiyinə, Nizaminin 800 illiyinə həsr olunmuş kantataları, Samur-Dəvəçi kanalının açılışı münasibətilə yazılmış kantatanı, xalqın müharibədə göstərdiyi igidliyini,  vətənpərvərlik ruhunu tərənnüm edən “Vətən və cəbhə” kantatasını göstərə bilərik. Tədqiqat işində ilk dəfə olaraq, Ü.Hacıbəylinin kantatalarının musiqi dilinin təhlili verilmiş, onların özünəməxsus cəhətləri xarakterizə olunmuşdur.

Azərbaycanın görkəmli şəxsiyyətlərin şairlərin yubileylərinə həsr olunmuş kantatalar solist, xor və simfonik orkestrin ifası üçün nəzərdə tutulmuşdursa, lakin bəzi hallarda, xüsusilə xalqın döyüş və əmək qəhrəmanlıqlarına həsr olunmuş kantatalarda bəstəkar rəqs qrupunu da daxil edir ki, bu da əsasən əsərin sonluğunun təntənəli surətdə tamamlanmasına şərait yaradır.

Ü.Hacıbəylinin yaratdığı xorlar arasında müəyyən oxşar cəhətlərin və qarşılıqlı əlaqələrin olması diqqəti cəlb edir. Özündə kantata janrının bütün əlamətlərini daşıyan əsərlərdə opera xorları ilə müəyyən əlaqələr özünü göstərir. Bu baxımdan kantatalara rəqs nömrələrinin daxil edilməsi onu opera sahəsinə yaxınlaşdırır. Bu xüsusiyyət “Koroğlu” operasında özünü qabarıq göstərir. Bəstəkar təntənəli xalq xorlarından sonra (“Çənlibel” xoru, əsərin sonunda Xalqın xoru) rəqs səhnələrindən istifadə edərək, bir növ, xalq şənliyi səhnələrini canlandırır. Bu da xalq musiqisindən gələn cəhətlər olub, kütləvi xalq səhnələrinin əsasının məhz rəqslə bağlı olduğunu təcəssüm etdirir.

Ü.Hacıbəylinin xor üçün əsərlərini araşdırarkən, eyni zamanda, biz burada janrların qarşılıqlı əlaqəsindən və zənginləşməsindən də söz aça bilərik. Bu xorlar kiçik forma ölçülərinə baxmayaraq, epik, monumental xarakteri ilə fərqlənir ki, bu da onların mövzu dairəsi ilə bağlıdır. Ü.Hacıbəylinin xor üçün bir sıra əsərlərinin quruluşunda, xüsusilə himnlərində kantata janrına yaxınlıq özünü göstərir. Bu baxımdan “Zəfər himni”nin kompozisiya quruluşunda kantata əlamətlərini izləmək olar.

Ü.Hacıbəyli xor üçün musiqi janrlarının ifadəli imkanlarını dərindən mənimsəmişdir. Onun xor üçün əsərlərinin fakturası homofon-harmonik və polifonik quruluşludur. Bəstəkar öz əsərlərində hər bir xor partiyasının tembr ifadəliliyini, vokal səslərin təbiətini qabarıq göstərməyə nail olmuşdur. Onu da qeyd edə bilərik ki, bəstəkar xor partiturasının tərtibində xalq ifaçılığı ilə bağlı ənənələrə də əsaslanır, məsələn, zərb alətlərinin səslənməsini təqlid edən ostinat metro-ritmik fakturanın istifadəsi bu qəbildəndir.

**Nəticə**

Beləliklə, Üzeyir Hacıbəylinin vokal-instrumental yaradıcılığında xüsusi yer tutan nümunələr müxtəlif janr xüsusiyyətlərini marş, himn, epik, lirik mahnı əlamətlərini özündə cəmləşdirmişdir. Bunların əksəriyyəti xor əsərləri kimi tədris olunmuş və konsert repertuarında yer tutmuşdur.

## ƏDƏBİYYAT


1. Bayramova X.Z. Üzeyir Hacıbəylinin yaradıcılığında xor musiqisi. Bakı, Elm və təhsil, 2016. 176 s.
2. Fərəcov S. Ü.Hacıbəylinin 2 marşı // “Ədəbiyyat və incəsənət” qəzeti, 1989, 14 iyul.
3. Əlyazma. Ü.Hacıbəyovun ev muzeyinin arxiv fondu S.V 6619.
4. Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları (toplayanı və tərtib edəni, ön sözün, qeydlərin, lüğət və adlar göstəricisinin müəllifi F.Əliyeva). III kitab, 1918-1920-ci illər. Bakı, Nurlan, 2006. 450 s.

5. Əsgərova F. Üzeyir Hacıbəyov və Məhəmməd Fizulinin "Leyli və Məcnun"u // Musiqi dünyası jurnalı, 2008. №1-2 (35), s.64-65.
6. Hacıbəyov Ü. Leyli və Məcnun. Klavir. Bakı, 1985.
7. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Azərbaycan, 1996. 304 s.

***AMEA Memarlıq və İncəsənət institutu,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: xumar_bayramova@bk.ru**

**Khumar Bayramova**

## GENRE FEATURES OF UZEYIR HAJIBEYLI'S CHORAL CREATIVITY

The article is devoted to the choral creativity of the brilliant composer and musicologist of Azerbaijan Uzeir Hajibeyli. It is known that U. Hajibeyli was the founder of the first choral group in Azerbaijan, and his work includes a large number of works for this group. The article examines the genre characteristics of these works and highlights their role in the development of Azerbaijani choral music. The composer's first choral experiments were considered the art of opera, especially emphasizing the dramatic significance of choirs in the opera "Leili and Majnun".

**Keywords:** *Uzeyir Hajibeyli, choir, genre, opera, vocals.*

**Хумар Байрамова**

## ЖАНРОВЫЕ ОСОБЕННОСТИ ХОРОВОГО ТВОРЧЕСТВА УЗЕИРА ГАДЖИБЕЙЛИ

Статья посвящена хоровому творчеству гениального композитора и музыковеда Азербайджана Узеира Гаджибейли. Известно, что У.Гаджибейли был основателем первого хорового коллектива в Азербайджане, и в его творчестве имеется большое количество произведений для этого коллектива. В статье рассматриваются жанровые характеристики этих произведений и освещается их роль в развитии азербайджанской хоровой музыки. В качестве первых хоровых опытов композитора было рассмотрено оперное искусство, особенно подчеркнуто драматургическое значение хоров в опере «Лейли и Меджнун».

**Ключевые слова**: *Узеир Гаджибейли, хор, жанр, опера, вокал.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 15.04.2024**
**Son daxilolma tarixi:27.05.2024**